# Gördüyünü çağıran aşıq

**Sadıq Avdıyev dünyaya göz açandan evlərində saz görüb, atası Avdının şirin zəngulələrini eşidib, körpəlikdən sazın-sözün sehrinə düşüb, sazla yatıb, sazla oyanmışdır.**

Elə o vaxtdan saza mehr-ülfət bağlamış, bu maraq və həvəslə də 1947-ci ildə aşıq sənətinin sirlərini öyrənməyə başlamışdır. Sənətin sirlərini azman el aşığı atası Avdı babadan görüb-götürmüşdür. "Ustad oğlundan şəyird olmaz" deyib atalar.

Aşıq Sadıq Avdıoğlu el içində öz ədəb-ərkanı, pürkamalı, istedadı ilə sayılıb-seçilmişdir. Bu sətirləri yazdıqca yadıma ustadlar ustadı Dədə Ələsgərin "Gərəkdi" qoşması düşür:

*Aşıq olub diyar-diyar gəzənin,*
*Əzəl başda pürkamalı gərəkdi.*
*Oturub-durmaqda ədəbin bilə,*
*Mərifət elmində dolu gərəkdi.*

Aşıq Sadıq həmişə sənətin təəssübkeşi və cəfakeşi olmuş, ozan-aşıq sənətini müqəddəs saymış, onun qədir-qiymətini yüksək tutmuş, elin sevgisini və məhəbbətini qazanmışdır. Özünün dediyi kimi:

***Enişlidir, yoxuşludur sənətimin yolları,***
***Gərək buna tab gətirsin eşq atımın nalları,***
***Aşıq Sadıq şövqə gələr, şad görəndə elləri,***
***Sinəsində telli sazı, dilində dastan gəzər.***

Aşıq Sadıq Avdıoğlu təkcə yaşadığı İncə dərəsində yox, Qazaxda, Borçalıda, Gəncəbasarda, Göyçədə də tanınıb sevilmiş sənətkarlarımızdandır.

Aşıq Sadıq 1957-ci ildə Gənclərin və Tələbələrin VI Ümumdünya festivalının iştirakçısı olmuşdur. Aşıq Sadıq toy-mağarlarda, şənliklərdə, dövlət tədbirlərində, bayramlarda, festivallarda çalıb-oxumuş, onun çıxışları həmişə alqışlarla qarşılanmışdır.

S.Avdıyevin aşıq sənətinin inkişafında, klassik el şairlərinin təbliğində, xalq istedadlarının üzə çıxarılmasında böyük xidmətləri olmuşdur. O sənətdə ustadların yolu ilə getmiş, özünəməxsus çalğısı, məlahətli səsi, şirin avazı ilə çoxlu pərəstişkarlar qazanmışdır.

Aşıq Sadıq düz 60 ildən çoxdur ki, sazın hikmətini, saz dünyasının böyüklüyünü, ülviliyini, ucalığını və müqəddəsliyini ürəyinin sevincinə qatıb el-el, oymaq-oymaq yaymış, elin sevincinə sevinmiş, dərdinə-qəminə kədərlənmişdir. Öz ilhamının mayasını elindən-obasından, onun füsunkar təbiətindən almışdır.

***Elnən nəfəs aldım, eldə ucaldım,***
***Elə arxalandım, eldən güc aldım ...***

S.Avdıoğlu klassik ustad aşıqların yaradıcılıq çeşməsindən su içib kamilləşib püxtələşmiş, özü də ustad sənətkar səviyyəsinə yüksəlmişdir. O, bu gün çağdaş Azərbaycan ozan-aşıq sənətinin, aşıq Avdı məktəbinin layiqli davamçısıdır.

Aşıq Sadıq uzun müddət Qaymaqlı kənd mədəniyyət evində fəaliyyət göstərmiş, oradan təqaüdə çıxmışdır. 1984-cü ildə Azərbaycan Aşıqlarının IV qurultayının nümayəndəsi olmuşdur.

Aşıq Sadıq eyni zamanda yaradıcı aşıqdır. Şeirləri müntəzəm olaraq mətbuatda dərc olunur. O həm də dastançı aşıqdır. Neçə-neçə dastanlarımızı hafizəsində qoruyub saxlayır. Ustad aşığımız özü də bir neçə dastan yaratmışdır. Son dastanı İncə dərəsinin igid və qəhrəman oğlu Azər Kazımovun şərəfinə həsr etdiyi "Azərin dastanı"dır. Bu dastan gənc nəslin vətənpərvərlik ruhunda tərbiyələnməsində mühüm rol oynayır.

**● Kazım KAZIMLI**